## Aşıq Oruc – 100

# QÜDRƏTDƏN KAMAL PAYI ALAN SƏNƏTKAR



*Xeybər GÖYYALLI*

Aşıq Oruc haqqında hələ ötən əsrin 80-ci illərində eşitmişdim. Ancaq onu da səmimi deyim ki, Aşıq Orucun İsmayıl Məmmədlinin atası olduğunu bu günlərdə "Bütöv Azərbaycan" qəzetində (13.02.2020) dərc olunmuş yazıdan öyrəndim. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Lüğətçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İsmayıl Məmmədlinin qələmə aldığı "Ustad oğlu şagird olmaz" sərlövhəli yazıda Aşıq Orucun şəklini gördüm. Həmin məqalədə müəllifin də imza yerində fotosu verilmişdir. Ulu Dədə Qorquda müdrikliyinə görə bir daha dönə-dönə Göy Tanrıdan rəhmət dilədim. Bu dünyanın gəliş-gedişini, hər nəsnəsini incəliyinə qədər duyub-bilən ulu Dədə Qorqud necə də müdrikcəsinə buyurmuşdur: "Oğul atanın yetiridir, iki gözünün biridir". Ata ilə oğul-Aşıq Orucla İsmayıl Məmmədli necə də oxşar idilər. Bu məqamda onu da qeyd edim ki, İsmayıl Məmmədlinin öz dilindən atasının aşıq olduğunu eşitmişdim. Ancaq Azərbaycan aşıq ədəbiyyatının tanınmış nümayəndələrindən sayılan Aşıq Orucun barəsində heç nə demir, söz düşmədiyindən heç doğma atası olduğunu dilə gətirmirdi. İndi bildim ki, bunun səbəbi sadə və səmimi bir insan kimi tanıdığımız dəyərli dilçi alimimiz İsmayıl Məmmədlinin son dərəcə təvazökar olması imiş. Əslində, Aşıq Oruc Aşıq Vəli oğlu sıradan bir aşıq olmayıb. Onun həyat və yaradıcılığına diqqət yetirdikdə görürük ki, aşıq ədəbiyyatının sərrafı və bu dəyərli xəzinəni öz töhfələri ilə zənginləşdirən sənətkarlardan olmuşdur. Aşıq Oruc 72 saz havasının mahir ifaçısı, söz deyib, söz qoşan yaradıcı bir aşıq olub. Sadə bir həqiqət var: istedadı olmayan heç bir vaxt şeir yaza bilməz. Aşıq Oruc sinədəftər bir aşıq olub. Bu istedad ona kökündən-şəcərəsindən gəlirdi. Atası Aşıq Vəli də öz dövründə Göyçə aşıq məktəbinin sayılıb-seçilən nümayəndələrindən olub. Aşıq Vəli ruh oxşayan avazı, zil səsi, gur, şaqraq zəngulələri ilə zamanının tanınmış sənətkarı olmuşdur. Deyirlər ki, öz dəst-xətti ilə seçilən Aşıq Vəli Göyçə mahalının sevimli aşıqlarından imiş. Bu məqamda məlum həqiqəti bir daha vurğulamaq istərdim. İnsan genotipdən sonra fenotipin - təbii coğrafi mühitin yetişdirməsidir. İnsanın bioloji nüvəsində və mənəvi mahiyyətində genotipi və dünyaya göz açdığı fenotipi-coğrafi mühiti dayanır. Bu mahiyyət insanı ömrü boyu tərk etmir, harada yaşamasından asılı olmayaraq canında-qanında daşıyır. İstedad və mənəvi enerji gendən, həmçinin mənəvi və təbii coğrafi mühitdən qidalanır. Aşıq Oruc əsrlərlə saz-söz məkanı kimi ad çıxarmış Göyçə mahalının Yarpızlı kəndində dünyaya gəlmişdir. Bu kəndin özündən onlarla aşıq yetişmişdir. Aşıq Oruc belə bir məkanda- Aşıq Vəlinin ocağında və saz-sözlə nəfəs alan Yarpızlıda doğulub böyümüşdür. Mənəvi mühitin zənginliyinə baxın. Bütöv bir kənd, bütün Göyçə saz-sözlə nəfəs alır, qoşma-gəraylı ilə danışır. Xain və məkrli ermənilər min illərlə bu böyük mənəvi mühiti yaratmış xalqı min bir hiylə ilə öz doğma yurd-yuvalarından keçmiş SSRİ hökumətinin ermənipərəst başbilənlərinin əli ilə köçürməyə nail olurlar. Aşıq Oruc atababalarının min illərlə yaşayıb-yaratdığı Göyçənin yaxınlığında yerləşən Gədəbəyi yurd yeri seçir. Gədəbəylə Göyçəni təkcə eyni təbii coğrafi mühit yox, həm də eyni mənəvi mühit birləşdirirdi. Min illərlə Azərbaycan dövlət və dövlətçiliyinin idarəetməsində yaşamış Göyçə və Gədəbəy mahalı eyni adət və ənənənin daşıyıcısı olmuşlar. Min illər ərzində Göyçə və Gədəbəydə fəaliyyət göstərmiş aşıq sənəti eyni bir məktəbin tərkib hissəsi idi. Aşıq Oruc ruhən Göyçədən ayrıla bilmədi. O, Gədəbəyin üzü Göyçəyə baxan, havası eyni olan, yal-yamacı, otu-suyu Yarpızlıdan seçilməyən bir kəndində - Zəhmət kəndində yurd saldı. Bu işıqlı dünya ilə də 56 yaşında elə orada vidalaşdı. Aşıq Oruc Gədəbəyi təsadüfən yurd yeri seçməmişdi. Dedik ki, Göyçə ilə Gədəbəyi eyni bir dəyər - saz-söz mənəvi mühiti birləşdirirdi. Bu gün Azərbaycan aşıq sənətində Gədəbəy aşıq məktəbi ayrıca bir məktəb kimi dəyərləndirilir və tədqiq olunur. Bu yanaşma Azərbaycanın coğrafi sərhədlərinin daralması sayəsində məcburən meydana çıxmışdır. Əslində, həmin coğrafiyada aşıq sənəti Göyçənin adı ilə bağlıdır. Vaxtilə eyni bir dövlətin sərhədləri daxilində olmuş Kəlbəcər-Göyçə və Gədəbəy eyni bir saz-söz və sənət məktəbində qovuşmuşlar.

Aşıq Oruc Gədəbəyə köçdüyü dövrdə bir insan kimi ən qaynar və coşqun, yaradıcılığının ən ilhamlı vaxtı idi. 1950-ci ildə Gədəbəy aşıq mühitinə qədəm basan Aşıq Orucun sözü-səsi, nəfəsi çoxluğa qarışıb itmədi. Əksinə, o, gəlişi ilə Gədəbəy aşıq sənətinə yeni ab-hava gətirdi, təzə nəfəs qatdı. Bu fikrimi bu gün Gədəbəy aşıq sənətinin tədqiqatçıları və çağdaş davamçıları da təsdiqləyərlər ki, Aşıq Oruc həmin dövrdə təşkilatçılıq işləri ilə yaxından məşğul olmuş, onun təşəbbüsü ilə rayonda aşıqlar dəstəsi yaradılmışdır. Həmin aşıqlar dəstəsi ansambl halında birləşərək təkcə respublikamızın möhtəşəm səhnələrində yox, keçmiş SSRİ-nin səhnələrində yüksək mədəniyyət nümayiş etdirdilər.

Bütün mənəvi enerjisini aşıqlıq sənətinin inkişafına sərf edən Aşıq Oruc Gədəbəy aşıqları , ümumən el-oba camaatı tərəfindən hər zaman hörmət-ehtiramla qarşılandı, uşaqdan-böyüyə hamı ədəb-ərkan göstərdi. Yeri gəlmişkən, onu da qeyd edək ki, qədirbilən və yaxşını pisdən asanlıqla fərqləndirən xalqımız əsl sənətkarı "qəlp"dən seçib ayırmağı məharətlə bacarıb, aşıq sənətinə "çörək ağacı" kimi yanaşanlara nəinki hörmət-izzət qoyub, əksinə, beləlerini məclis-mərəkəyə belə dəvət etməyiblər. Həmişə belə olub, qədirbilən xalqımız yaradıcı aşıqları peşəkarlardan urvatlı tutub, onların arasında yerlə göy qədər fərq qoyub. Xalqımızın əsl sənətkarlara ehtiram bəsləməsi, urvatlı tutması onların araya-ərsəyə gətirdikləri "mənəvi yükləri"nin sanballı olması ilə bağlıdır. Xalq öz sənətkarlarına qarşı bu cəhətdən "təmənnalı" olub. Bu "təmənna", bu umacaq sənətkarın ortaya qoyduğu , xalqa ərməğan etdiyi "paypüşü" ilə ölçülüb. Axı zaman-zaman aşıq elin içində olub, o, xalqın ruhu olub, içindən çıxdığı xalqın ruhunu ifadə edib. Nahaq yerə deyilməyib ki, elin gözü tərəzidir. Xalqı aldatmaq mümkün deyildir.



Xalqın içindən çıxmış, onun milli-mənəvi ruhunun mükəmməl ifadəçisi olan Aşıq Orucu zamanında xalq urvatlı tutmuş , sənət qarşısında xidmətləri isə dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Tanınmış el sənətkarı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Aşıq Oruc Göyçə-Gədəbəy aşıq məktəbinin müqtədir və kamil sənətkarlarından biridir. O. yaradıcı aşıqdır. Ona qarşı süslənmiş xalq məhəbbətinin mayasında onun sənəti - mahir ifası, coşqun ilhamı, müdrik şairliyi dayanırdı. Onun əlçatan şeirlərini maraqla oxudum. Ona görə əlçatan şeirləri dedim ki, Aşıq Orucun külliyyatı ilə tanış deyiləm, yalnız oğlu, tanınmış dilçi-alim, professor İsmayıl Məmmədlinin təqdimatında "Bütöv Azərbaycan" qəzetində dərc edilmiş şeirləri ilə tanış oldum. Ancaq yaxşı deyilib ki, dəryanın dadını damladan da bilmək olur. Tam məsuliyyətlə demək olar ki, adıçəkilən qəzetdə işıq üzü görən gəraylı və qoşmalar müəllifin- Aşıq Orucun coşqun təbli və ilhamlı bir şəxs olduğundan xəbər verir. Şeirlər ədəbi-bədii cəhətdən yüksək sənətkarlıqla qələmə alınıb, bu da müəllifin istedad və peşəkarlığının gerçək təsdiqidir.

Aşıq Orucun qəzetdə dərc olunmuş şeirləri ilə tanış olduqda aşıqlıq sənətinin bir ürfan, bir məslək olduğunu görürük. Gəraylı və qoşmaların dadı, tamı və mənəvi ruhu eynilə Göyçə aşıq məktəbinin , onun azman yaradıcıları Aşıq Alı, Aşıq Ələsgər ruhunun bəlli ölçü-biçidə davamıdır. Aşıq olan kəs bu ruhu müqəddəs bilib, sazı-sözü uca tutub. Ustad sənətkarın "Neyləsin" gəraylısı, "Var", "Danışaq", "Sənin" qoşmaları əsl sənət nümunələri olub,sələflərinin əsərlərindən heç də geridə qalmır. Bu şeirlər poetik ritmi, axıcılığı ilə əsl ədəbi nümunələrdir. "Danışaq" və "Sənin" qoşmalarının məzmun və mündəricəsində epoxanın çalarları azacıq duyulsa da, sənətkarlıq cəhətdən təqdirəlayiqdir. Qəzetdə dərc olunmuş azsaylı şeirlər arasında Aşıq Oruc Əhmədovun yüksək məzmun və mündəricəsinə görə seçilən iki poetik nümunəsi ilə də tanış olduq. Bu iki ədəbi nümunə Aşıq Orucun "Qıfılbənd" və "Sinə-sinə" adlanan təcnisidir. Qıfılbənd və təcnis yazmaq hər aşığa müyəssər olmur. Bu ədəbi janrlar aşığın yüksək istedadından, geniş təfəkküründən, dərin müşahidəsindən xəbər verir. Bəllidir ki, əlinə hər saz alan, qoşma-gəraylı düzüb-qoşan aşıq qıfılbənd və təcnisin" imtahanından" keçə bilməyib, bu ədəbi növlərdə yaza bilməyiblər. Yazmaq demişkən, aşıq sənətində yazmaq bir peşə kimi sonradan meydana çıxıb. Aşıq sənətində poeziya nümunələri bədahətən yaranıb.

Çox vaxt belə bir fikrə rast gəlirik ki, böyük söz ustadları, o cümlədən aşıq ədəbiyyatının nəhəng nümayəndəsi Aşıq Ələsgər yazıb-oxumaq bilməyib. Bu fikrin heç bir məntiqi əsası yoxdur, kökündən yanlışdır. Külli kainatın, ərşlə fərşin, cümlə-cahanın sirlərinə əl aparan , "Ələst aləmi"ndən xəbərdar olan Aşıq Ələsgər savadsız olub, kitab-dəftər oxumayıb?! Ağıla sığan, məntiqə yaraşan fikir deyil. Haqqında söhbət açdığımız Aşıq Oruc da bu gün bizlərin oxuduğu məktəbi oxumayıb. Amma onlar bizlərdən çox-çox dərin elmlərə baş vurub, bizim qavradığımız bilgilərdən daha zəruri məlumatları mənimsəyiblər. Onların bu gün bizlərin zərrə qədər məlumatımız olmadığı ürfan, nücum (astronomiya), bir sözlə, insan, təbiət və həyat haqqında daha təbii və dəqiq bilgilər verən elmləri oxuyub öyrəniblər. Aşıq Oruc Azərbaycanda yenicə təşkil olunmuş sovet məktəbində vur-tut 4 il oxuyub. Amma "Qıfılbənd"ində söz açdığı məsələlərin heç biri barədə heç sovetin ali məktəblərində belə söhbət açmaq mümkün deyildir. Dördcə sinif oxumuş Aşıq Oruc bir el məclisində qarşılaşdığı (deyişdiyi) Aşıq Teymurdan bədahətən soruşur:

Səndən xəbər alım, ay aşıq Teymur,
Necə daşdır hər nişanı kölgəsiz.?
O nədir ki, nə dincəlib, dayanmaz,
Nə dolanır bu dünyanı kölgəsiz?
O nədir ki, nəfəsi yox, qanı var?
O nədir ki, hər bir rəngdən donu var?
O nədir ki, nə yurdu, məkanı var?
Geşt eyləyər hər bir yanı kölgəsiz.
Oruc deyər nədir yerin pərgarı?
O nədir ki, gah qız olur, gah qarı?
O nədir ki, yerin-göyün ləngəri?
Əgər bilsən, hər nişanı kölgəsiz.

Bu məqamda sərt bir məntiqi sual ortaya çıxır: yer (təbiət) və kainat (kosmik) elmlərindən xəbərdar olmayan, ürfan elmlərindən hali olmayan şəxs bədahətən bu cür dərin şeirlər söyləyə bilərmi? Yəqin ki, hər kəs daxilən razılaşar və suala birmənalı cavab verər.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*

Ürfan elmindən xəbərdar olmayan, ustad dərsi keçməyənlər "sirri-xuda" şeirləri yaza bilməzdi (söyləyə bilməzdi). Belə fövqəl düşüncə sahiblərinə, bu cür geniş təfəkkürə malik olan seçilmişlərə , yenilməz qüdrət sahibi tərəfindən kamalla mükafatlandırılmış şəxslərə necə savadsız demək olar?! Bir də ki, bu fikirlərin müəllifi olan arif şəxslərə savadsız deyənlərin ən azı özləri "piyadadırlar". Belə "piyadaların" xoşbəxtliyi ondadır ki, onlar "piyada" olduqlarını bilmirlər.

İndi isə ustadın təcnisinə diqqət yetirə:

O hilal qaşını görəndə gözüm,
Müştaq oldum onun yar sinəsinə.
Laçın hərəkətli, tovuz cilvəli,
Qaldım qulluğunda yar sinə-sinə.
Gəzib bu dağları, lalə üzəsən,
İnsaf eylə, gəl dərdimi üzəsən.
Busə nədir , qıymayırsan üzə, sən,
Al xəncəri, bağrım yar sinə-sinə.
Oruc deyir sən gələndə, Yasəmən,
Gah şad olub, gah batıram yasa mən.
Nitqi- nəfəsimdən qopur yasəmən,
O nədir köksündə yar sinə-sinə?

Qoşmada "sinə" və "yasəmən" sözləri cinas kimi işlədilib .Birinci bəndin ikinci misrasında (Müştaq oldum onun yar sinəsinə) sinə döş mənasında, həmin bəndin dördüncü misrasında sinə-sinə sözü sınmaq, əyilmək mənasındadır.

# QÜDRƏTDƏN KAMAL PAYI ALAN SƏNƏTKAR

Qoşmanın ikinci bəndində yeni qafiyə açılıb və "üzəsən" sözü cinaslaşdırılıb. İkinci bəndin birinci misrasında (Gəzib bu dağları, lalə üzəsən) üzəsən (üzmək, dərmək) feildir. İkinci misrada (İnsaf eylə, gəl dərdimi üzəsən) üzəsən qoparmaq, üzmək mənasındadır. Üçüncü misrada (Busə nədir, qıymayırsan üzə, sən) üz - sifət, yanaq mənasında işlənilmişdir. Dördüncü misrada (Al xəncəri, bağrım yar sinə-sinə) əyilə-əyilə, sınmaq mənasındadır.

Qoşmanın möhür bəndində "yasəmən" sözü də məharətlə cinaslaşdırılıb. Sonuncu bəndin birinci misrasında (Oruc deyir sən gələndə, Yasəmən) "Yasəmən" sözü qadın adı kimi işlənilib. İkinci misrada (Gah şad olub, gah batıram yasa mən) "yasa" matəm mənasındadır. Üçüncü misrada (Nitqi- nəfəsimdən qopur yasəmən) "qopur yasəmən" söyləyən ustad sənətkar yasəmən ətirini, yasəmən qoxusunu nəzərdə tutmuşdur.

Aşıq ədəbiyyatının bütün dövrlərində bu məzmun və məndəricəli şeirlər adi şeirlər kimi qəbul olunmayıb.Qıfılbənd və təcnislər dünyanın dərin sirlərinin açarını özündə saxlayıb. Bu səbəbdən qıfılbənd və təcnis yazmaq (əslində, bədahətən söylənilib) sənətkardan fövqəl istedad və xüsusu bacarıq tələb edib. Aşıq Orucun yaradıcılığından örnək gətirdiyimiz hər iki ədəbi nümunənin mənəvi enerjisi Abbas Tufarqanlıdan, Xəstə Qasımdan, Aşıq Alıdan, Aşıq Ələsgərdən gəlmirmi?! Deyim və duyum, forma və məndəricə eyni deyilmi?!

Ustad sənətkarlar sözün bütün mənalarında xalqın övladlarıdır., özü də əziz-xələf və sevimli övladları. Aşıq Oruc da sənətində mənəvi enerji və ruhunu yaşatdığı sələfləri Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər kimi xalqın yaddaşında əbədi yaşayacaqdır.